


# MÜBARİZ KEŞİKDƏ

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzabəziyyətlidir.*

Heydər Əliyev

20 avqust 2020-ci il
Cümə axşamı

№ 29 (3494)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


# SOSİAL-İQTİSADİ SİYASƏT ÖZ BƏHRƏSİNİ VERİR

**Prezidentin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Pandemiya ilə əlaqədar dünyada baş verən iqtisadi proseslər ölkəmizə təsirsiz ötüşməsə də bu gün dövlət başçısının məqsədi Azərbaycanı dünyanın ən güclü dövlətlərinin sırasına çıxarmaq, vətəndaşlarımızın rifah halının yaxşılaşdırılması üçün imkanları maksimum səviyyədə səfərbər etməkdir.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də yeni taksilərlə tanış olub.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin 6 nəfərlik müştəri salonu olan, müasir standartlara cavab verən "LEVC TX" modelli yeni 100 ədəd "London taksi"lərinin vətəndaşlar üçün xidmətə hazır olması və xüsusiyyətləri barədə nazir Ramin Quluzadə Prezident İlham Əliyevə məlumat verib.

Nazir bildirib ki, yeni taksilərdə həm sürücülər, həm də sərnişinlər üçün tam təhlükəsiz və rahat şərait təmin olunub. "LEVC TX" modelli yeni taksinin bir sıra üstünlükləri var. Belə ki, bu model taksilər yanacaq əvəzinə elektriklə işləyir. Avtomobillər həm ev şəraitində, həm də xüsusi quraşdırılmış məntəqələrdə cərəyanla təmin oluna bilər. Smart konfiqurasiyalı avtomobil 130 kilometrə qədər sırf elektriklə çalışır, sonra rejimin dəyişməsi mümkündür. Bu isə ətraf mühitə və ekologiyaya ziyanın sıfıra endirilməsi deməkdir.



Smart texnologiyaların geniş tətbiq edildiyi taksilər həm sürücü, həm də sərnişinlər üçün təhlükəsizdir. Belə ki, avtomobil özü yoldakı sürət həddi barədə sürücünü xəbərdar edir. Sürücü idarəetməni itirdikdə və ya yol trayektoriyasını dəyişdikdə xüsusi sensorlar ona müvafiq məlumatı ötürür.

Yeni taksilərin sərnişin kabinəsi digər "London taksi"lərindən fərqli olaraq daha genişdir və altı oturacağı var. Avtomobillərdə USB portlar, "Wi-Fi" və GPS quraşdırılıb. Sürücü ilə sərnişin arasında əlaqəni minimuma endirmək üçün şüşə arakəsmə mövcuddur. Bu isə pandemiya dövründə təcrid və sosial məsafə baxımından da olduqca əlverişlidir. Kabinədə sürücü ilə əlaqə üçün xüsusi mikrofon, görmə qüsurlu sərnişinlər üçün brayl əlifbası ilə idarəetmə paneli, eşitmə əngəllilər üçün isə təlimat lövhəsi var. Avtomobil fiziki əngəllilər üçün pandusla təchiz edilib. Bu taksilərdə ödənişi post-terminal vasitəsilə də həyata keçirmək mümkün olacaq.

Prezident İlham Əliyevə məlumat verilib ki, hazırda paytaxtda "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin 1200 taksisi sakinlərə xidmət göstərir. London "TX4" modelləri 5 nəfərlikdir.

Onu da qeyd edək ki, yeni gətirilən taksilər "Android" sistemi ilə təchiz olunub. Bu isə sürücülər üçün geniş imkanlar açır və onlar bütün prosesi monitor vasitəsilə idarə edə bilirlər.

Yeni taksilərin Bakıya gətirilməsi paytaxtda sərnişindaşımanın bu növü üzrə xidməti daha yüksək səviyyəyə qaldırmağa imkan verəcək.

***Avqustun 17-də ölkəmizin rəhbəri "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı bəzi tədbirlər haqqında fərman imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev avqustun 17-də Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

***Dövlətimizin başçısı avqustun 17-də Eldar Hümbət oğlu Həsənovun iqamətgahı Belqrad şəhərində olmaqla Azərbaycan Respublikasının Serbiya Respublikasında, Monteneqroda və Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri vəzifələrindən geri çağırılması haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri avqustun 17-də Dursun Ayvaz oğlu Həsənovun Azərbaycan Respublikasının Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında sərəncam imzalayıb.***

***Dövlət başçımızın 17 avqust tarixli sərəncamları ilə Faiq Maqbet oğlu Quliyev Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini vəzifəsindən azad edilərək Azərbaycan Respublikasının Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri təyin edilib.***

***Avqustun 17-də ölkəmizin rəhbəri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının mükafatlandırılması haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 18-də Özbəkistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanovun etimadnaməsini qəbul edib.***

## Prezidentin Mətbuat Xidmətindən

Avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Prezident İlham Əliyev Prezident Vladimir Putinə iyulun 12-16-da Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın törətdiyi təxribat barədə məlumat verib. Dövlətimizin başçısı Ermənistanın növbəti təcavüz aktı nəticəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının və bir nəfər mülki şəxsin həlak olduğunu vurğulayıb. Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin sərhəd boyunca kəndləri və yaşayış məntəqələrini artilleriya atəşinə tutması nəticəsində bir çox evlərin dağıldığını və yararsız hala düşdüyünü bildirib.

Prezident İlham Əliyev Ermənistanın bu hərbi hücumunun əsas məqsədinin üçüncü tərəfləri Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etmək olduğunu qeyd edib.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan sərhədində baş vermiş toqquşmalar başa çatandan sonra iyulun 17-dən bu günə kimi Rusiyadan Ermənistana hərbi təyinatlı yüklərin daşınmasının intensiv xarakter almasının Azərbaycan ictimaiyyətində narahatlıq və ciddi suallar doğurduğunu Rusiya Prezidentinin diqqətinə çatdırıb.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan sərhədində baş vermiş hərbi toqquşmadan dərhal sonra Rusiyadan Qazaxıstan, Türkmənistan və İran İslam Respublikasının hava məkanından istifadə edərək bu günə qədər Ermənistana daşınan hərbi təyinatlı yüklərin həcminin 400 tondan artıq olduğunu bildirib və telefon zənginin əsas məqsədinin bu məsələnin aydınlaşdırılması olduğunu vurğulayıb.

Telefon söhbəti zamanı ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın gündəliyinə aid məsələlər müzakirə edilib və Azərbaycan-Rusiya tərəfdaşlığının bütün sahələrdə daha da möhkəmləndirilməsinə dair qarşılıqlı niyyət ifadə olunub.

Prezident İlham Əliyev Vladimir Putini Rusiyada COVID-19-a qarşı peyvəndin qeydiyyata alınması ilə bağlı təbrik edib.

## DİN qaydalara riayət etməyi tələb edir

Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə 2020-ci il avqust ayının 31-dək ölkə ərazisində tətbiq edilən xüsusi karantin rejimi dövründə bütün kütləvi tədbirlər, o cümlədən dini ayinlərin keçirilməsi, ictimai və digər yerlərdə şəxslərin 5-10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağan edilmiş, məscidlərin fəaliyyəti dayandırılmışdır.

İnsanların dini etiqad azadlığına dərin hörmətimizi ifadə edərək və tətbiq olunan məhdudiyyətlərin məqsədinin yalnız əhalinin sağlamlığını qorumaq olduğunu bir daha vurğulayaraq vətəndaşlarımızın nəzərinə çatdırırıq ki, cari il avqust ayının 21-dən başlayan Məhərrəm ayı ilə əlaqədar, o cümlədən "Aşura" günündə məscidlərdə, ziyarətgahlarda və digər ibadət yerlərində, eləcə də ayrı-ayrı evlərdə toplaşmaq yolverilməzdir.

Hər bir kəsi bu müraciəti anlayışla qarşılamağa və xüsusi karantin rejiminin tələblərinə ciddi əməl etməyə çağırırıq.

# Yazılan söz yadigardır

***"Mübariz keşikdə" qəzetinin əlavəsi olaraq, DİN rəhbərliyinin xeyir-duası ilə ərsəyə gətirdiyimiz "Asayişin keşiyində" jurnalının 11-ci sayı da işıq üzü gördü. Pandemiya yaradıcı fəaliyyətimizdə durğunluğa səbəb olmasa da digər texniki işlərin görülməsini aylarla ləngitdi. Bu səbəbdən oxucularımızı intizarda qoysaq da onların diqqətini çəkəcək "könül işləri" ilə tərifi də, tənqidi də eşitməyə hazırıq.***




***Daxili işlər orqanlarının tarixində və taleyində iz buraxan hadisələrin, yeniliklərin kiçik bir xəbər və ya geniş bir məqalə həcmində şəkillənməsi üçün sevə-sevə vaxtımızı, zamanımızı həsr edib, bu işdən zövq aldıq. Yaşananları tarixə çevirmək hünəri ilə dövlətə və xalqa canıyla-qanıyla xidmət edənlərin, Vətənimizin bütövlüyü və bölünməzliyi uğrunda şəhidlik zirvəsinə ucalanların adı unudulmasın deyə qələmə sarılıb, səf-səf sıralandıq.***

***Keçmişə də güzgü tutmağı unutmadıq. 1941-1945-ci illər müharibəsindən sonra ömrünü-gününü daxili işlər orqanlarına həsr edənləri, yaşı yüzü haqlayan veteranlarımızı yad edib onlara ölkə və DİN rəhbərliyi tərəfindən unudulmadıqlarını bir daha xatırlatdıq...***

***Həmkarlarımızın yaradıcılığına da bu sayımızda geniş yer verdik. Jurnalın səhifələrinin sayının çox olmasına can atmadıq, diqqətimizi çəkən mövzuların üzərində "can yandırdıq" ki, oxuyanda qəlbiniz rahatlıq tapıb, qürur hissi duyasınız.***

***Əziz həmkarlarımız, "Mübariz keşikdə" də, "Asayişin keşiyində", də sizin tribunanızdır. Yazın ki, yazaq ki, səsimiz eşidilsin, çünki yazılan söz yadigardır...***

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# Şəxsi heyətin sağlamlığı diqqət mərkəzindədir

Şəxsi heyətinin döyüş hazırlığının, eləcə də fiziki göstəricilərinin yüksək olması onların sağlamlıq durumundan çox asılıdır. Bu məqsədlə, paytaxda olduğu kimi, yerlərdə də davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilir.

16075 saylı hərbi hissənin tibb personalı da vəzifə borclarına məsuliyyətlə yanaşır, müəyyən edilmiş tapşırıqları uğurla yerinə yetirirlər.

Görülən işlərə aydınlıq gətirmək üçün hərbi hissənin tibb xidmətinin rəisi, tibb xidməti kapitanı İlham Abbasovla həmsöhbət olduq.

Xidmət rəisi bildirdi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət hər zaman nəzarətdə saxlanılır. Xüsusilə, bütün dünyada, eləcə də ölkəmizdə yayılan koronavirus (COVID-19) pandemiyası səbəbindən hərbi qulluqçuların təhlükəli infeksiyaya yoluxmasının qarşısının alınması, onların sağlamlığının qorunması məqsədilə profilaktik tədbirlər həyata keçirilir. Belə ki, sanitar-təlimatçılar tərəfindən gündəlik olaraq əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargah binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir. Hərbi hissənin və yataqxananın ərazisinə daxil olan bütün avtomobillər də dezinfeksiya olunur.







Bundan əlavə, hər gün növbətçi həkim tərəfindən hərbi hissənin nəzarət-buraxılış məntəqəsində hərbi qulluqçuların temperaturu yoxlanılır, infeksiyaya yoluxmaqdan qorunmaq üçün maskadan və tibbi əlcəklərdən istifadə olunması, gigiyena qaydalarına riayət olunması barədə məsləhətlər verilir. Şəxsi heyətin qidalanmasından öncə yeməklərin orqanoleptik göstəriciləri yoxlanılır.

Gün ərzində qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunmuş şəxsi heyətin tibbi müayinəsi aparılır, təzyiqləri ölçülür, şikayətləri varsa, dinlənilir. Səhhətindən şikayəti olan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ona hərtərəfli yardım göstərilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə götürülür.

Diqqətimizə o da çatdırıldı ki, bölmələr tibbi preparatlarla fasiləsiz təmin edilir, DİN rəhbərliyinin diqqət və qayğısı şəxsi heyətin fiziki və döyüş hazırlığının yüksəlməsinə zəmin yaradır, əldə ediləcək uğurların təməlini daha da möhkəmləndirir.

*baş leytenant Xədicə Hacızadə*

# Polis zamanın qəhrəmanı olmağı bacardı

**Dünyanı cənginə alan koronavirus təhlükəsi minlərlə insanın həyatına son qoyur. Ölkələr iqtisadi böhranla üzləşirlər. Hər kəsi bir sual düşündürür: "Pandemiya nə vaxt bitəcək?"... Ümumdünya Səhiyyə Təşkilatı isə bu bəlanın hələ uzun illər bizimlə bir yerdə olacağını deyir. Proqnozlar elə də ürəkaçan deyil...**



Bu gün respublikamızda bütün imkanlar səfərbər olunur ki, insanlar az zərər görsünlər. Belə bir şəraitdə həkimlərlə yanaşı, həyatı təhlükəsi daha artıq olan peşə sahiblərindən biri də polislərimizdir.

Onlar da koronavirusla mübarizədə ön cəbhədə fədakarlıq nümayiş etdirirlər. Asayiş keşikçilərinin çətin vəziyyətdə olanların köməyinə çatması, onlara yardım əli uzatması, humanist davranışları alqışa layiqdir və xalqını, dövlətini sevən hər kəsdə qürur hissi oyadır. Təəssüflər olsun ki, bəzən sosial şəbəkələrdə polisin nüfuzuna, işgüzar fəaliyyətinə kölgə salmaq istəyənlərin də şahidi oluruq. Unutmayaq ki, koronavirusla bağlı tətbiq olunmuş qaydalar təkcə dövlət orqanlarının deyil, bütün cəmiyyət qarşısında məsuliyyət qoyur. Vətəndaşların sağlamlığı və təhlükəsizliyi naminə bəzi məhdudiyyətlərin olduğu bir şəraitdə qaydalara əməl olunması istiqamətində polis xidməti borcunu ləyaqətlə yerinə yetirir. Qanunla müəyyən edilmiş qaydada öz səlahiyyətləri çərçivəsində müvafiq addımlarını atır.

Belə həssas bir dönəmdə hər hansı anlaşılmazlığı əldə bayraq tutub polisə qarşı aparılan "qara piar" kampaniyası yolverilməzdir. Görəsən, qara yaxanlar, çamur atanlar Azərbaycan Polisinin qəhrəmanlıqlarını niyə unudurlar?

İctimai asayişin, qanunçuluğun və hüquq qaydalarının, eləcə də vətəndaşların konstitusion mənafelərinin yüksək səviyyədə qorunması ölkəmizin ötən müddət ərzində qazandığı ən mühüm nailiyyətlər sırasındadır.

**Pandemiya polisin xidmətinin çətinliyini bir daha gözlər önünə sərmiş oldu. Günümüzün qəhrəmanlarını tanımaq üçün çevrəmizə baxmaq kifayətdir.**

Yeri gəlmişkən, cinayətkarlığa qarşı mübarizədə, ictimai təhlükəsizliyin təmin edilməsində daxili işlər orqanlarının onlarla əməkdaşı və hərbi qulluqçusu həlak olub, xəsarət alıb. 2015-ci ildə paytaxtda çoxmərtəbəli yaşayış binasında yanğın zamanı özünü oda atıb həyat qurtaran, suda boğulan vətəndaşı xilas edərkən özü boğulan və bu kimi onlarla hadisənin qəhrəmanı Azərbaycan Polisi deyilmi?






Günümüzün mənzərəsi də, qəhrəmanları da göz önündədir. Yetər ki, əlimizi ürəyimizin üstünə qoyub ədalət naminə haqqı görən xoşbəxtlərdən olaq...

*Səbinə Hüseynzadə,*
*Gənclərin İnkişaf və Karyera Mərkəzinin əməkdaşı*

# Təşəkkür dolu məktublar...

**Polisin işinə az-çox bələd olanlar bilir ki, cinayətlərin açılması ağır zəhmət hesabına başa gəlir və polis hər an ölümlə üz-üzə, göz-gözə dayanır. Onu harda, hansı məqamda sürprizin gözlədiyi bəlli olmur.**

Fəlsəfədə deyilir ki, fədakarlıq, insan kamilliyinə doğru aparan yoldur. Deməli, polis həm kamil olmalıdır, həm də xidmətinə qanun çərçivəsində, yaradıcı yanaşmağı bacarmalıdır. Azərbaycan Polisi də öz xidmətinə elə bu cür yanaşır, nəticələr də göz qabağındadır.



İçdikləri anda sədaqət nümayiş etdirən, vəzifə borcunu layiqli yerinə yetirən polisin xidməti diqqətdən kənarda qalmır, vətəndaşlarımız tərəfindən yüksək qiymətləndirilir. Ünvanımıza gələn məmnunluq, təşəkkür dolu məktublar buna əyani sübutdur.

**Bakı şəhər sakini Razin Şirinov** bacısı Dürdanə Qəhrəmanovaya qarşı edilən dələduzluqla əlaqədar Sabunçu RPİ-yə etdiyi müraciətə operativ baxılmasına və dəymiş ziyanın ödətdirilməsinə görə təşəkkürünü bildirir.

Yaşadığı binanın blokundan ona məxsus kondisionerin oğurlanması ilə bağlı etdiyi müraciətə çevik reaksiya verildiyinə, oğurluq edən şəxsin qısa zaman kəsiyində tapılaraq qanuna təslim edildiyinə və ona məxsus kondisionerin qaytarılmasında göstərilən köməkliyə görə **Bakı şəhər sakini İsmayıl Quliyev** Binəqədi RPİ-nin 5-ci Polis Bölməsinin əməkdaşlarına minnətdarlığını yazır.

**Bakı şəhər sakini İlkin Hüseynzadə** onun adına saxta yolla açılmış VÖEN barədə Bakı şəhər Baş Polis İdarəsinə etdiyi müraciətə həssaslıqla yanaşdıqlarına, bu əməli törədən şəxsin tapılmasına və göstərilən köməkliyə görə minnətdarlıq edir.

**Gədəbəy rayon sakini Heydər Əliyev** xidməti və vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, asayişin təmin olunmasında, cinayətkarlıqla mübarizədə fəal iştirakına görə Gədəbəy RPŞ-nin rəhbərliyindən razılıq və təşəkkürünü ifadə edir.

**Bakı şəhər sakini Xanlar Mehdiyev** ona məxsus pul kisəsinin itirməsilə bağlı etdiyi müraciətə operativ baxılmasına və pul kisəsini götürən şəxsin tapılaraq ona dəymiş ziyanın ödətdirilməsində göstərilən köməkliyə görə Bakı şəhər Baş Polis İdarəsinin, Sabunçu RPİ-nin 13-cü Polis Bölməsinin rəhbərliyinə və əməkdaşlarına minnətdarlığını bildirir.

**Saatlı rayon sakini Qabil Hüseynov və Bakı şəhər sakini Nurlan Rəhimli** iyulun 12-də Tovuz rayonu istiqamətində baş vermiş hadisələrlə bağlı öz dəstəklərini bildirir, xidməti vəzifə borcunu layiqincə yerinə yetirən, ictimai asayişin və təhlükəsizliyin keşiyində mətin dayanan Azərbaycan Polisinə minnətdarlıq edirlər.

**Bakı şəhər sakini Məhəmməd Bayramov** DİN-ə ünvanladığı təşəkkür məktubunda Nəsimi RPİ-nin əməkdaşlarına xidməti vəzifələrinin öhdəsindən layiqincə gəldiklərinə, vətəndaşlara göstərilən səmimi və yüksək mədəni davranışa görə təşəkkür edir.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# O, güvənc yeridir, O, xilaskardır…

**Azərbaycanımızı dünyada söz sahibinə çevirən onun qanunları, dövlətçilik ənənələri, humanizmi və tolerantlığıdır.**

**Sabitlik isə sadaladıqlarımızın varoluşunun təməlidir. Bu təməlin sağlam və sarsılmaz olması üçün ordumuz, polis və digər hüquq mühafizə orqanları gecə-gündüz keşikdədir.**



Azərbaycan Polisi dövlətin dayaq sütunlarından biri olduğu kimi, dövlətçilik ənənələrinin də əsas təmsilçilərindəndir. Yarandığı gündən daxili işlər orqanları öz xidmətinin şəffaflığı, dəqiqliyi, ədalətli olmağı, məsuliyyətliliyi, xalqa canıyananlığı ilə ictimaiyyətin məhəbbətini, inamını qazanıb.

Azərbaycan tarixini ən çətin dövrlərində polis dövlətin bel sütunu olduğunu dönə-dönə sübut etdi. Dünyanın bəlasına çevrilən koronavirus pandemiyası ilə mübarizədə də hüquq mühafizə orqanları ilə yanaşı, dövlətin bütün strukturlarını səfərbər etməsində məqsəd insanları üzləşdikləri sosial-iqtisadi çətinlikdən çıxarmaq olsa da psixoloji amillər də diqqətdən kənarda qalmadı. Qəbul olunmuş şərtlərə uyğun olaraq təlimatlandırılmış təşkilatlar, hətta könüllülər də bələ ilə mübarizədə ilk növbədə stresi, ruh düşkünlüyünü aradan qaldırmaq üçün ölkəni əhatə edən layihələrə imza atdılar. Maarifləndirmə vəziyyətin müsbətə doğru dəyişməsində nəticəsini verdi və bu gün Azərbaycanda həyatın axarına düşməsi üçün dövlət tərəfindən zəruri işlər görülür.



Polisin xidmətinə gəlincə, informasiya çeşidliliyi səbəbi ilə asayiş keşikçilərinin xidmətlərini vətəndaşlar sosial mediadan daha sıx şəkildə təqib etməyə başlayıb. Bu isə bir növ mövcud olan müsbət polis-vətəndaş münasibətlərinin daha geniş şəkildə ictimailəşməsinə zəmin yaradıb. Hətta dünyanın bir çox KİV-lərində Azərbaycan Polisinin qəhrəmanlığı, şücaəti öz əksini tapıb.

Xalq, sözün əsl mənasında, polisin güvənc yeri olduğunu, polis adının xilaskarlıq simvoluna çevrildiyini görür və qiymətləndirir.

Pandemiya öz mənfi yönləri ilə doğmaları bir-birindən uzaqlaşdırsa belə, bu dövrdə polisi vətəndaşla dost etdi. İndi ən kiçik təhlükə anında vətəndaşın gözü polisi axtarır. Çünki Azərbaycan xalqı bilir ki, əsl dost özünü dar gündə tanıdır.

Xüsusi sərt karantin rejimi elan edilən müddətdə bilmədiyimiz, ictimailəşdirilməyən faktlarla polisimiz dünya nisbətində öz üstün xidməti fərqini ortaya qoymuşdur.

Azərbaycan Polisini xalqın verdiyi bu sonsuz dəyər qürurlandırır, müvəffəq xidmətə yönləndirir, həvəsləndirir. Məhz buna görə də polis bizim fəxrimiz, güvənc yerimizdir.

*Aytən Nəbiyeva*

# Tolerantlıq milli sərvətimizdir

“Allahu-əkbər” sədaları ilə birgə kilsə zənglərinin eşidilməsi, hər kəsə ana dilində özünü ifadə etmək azadlığının verilməsi, milli mənsubiyyətinə görə kimsənin təqib edilməməsi bu gün Azərbaycanda olan tolerant və multikultural mühitin göstəricisidir.



İnamla deyə bilərik ki, insanlar arasında dostluq, qardaşlıq tellərinin möhkəmlənməsinə xidmət edən, əsrlərdən bəri qoruyub-yaşatdığımız və leksikonumuza yeni söz kimi daxil olan multikulturalizm xalqımızın milli sərvətidir. Bu sərvəti isə qoruyub gələcək nəsillərə ərmağan etmək üçün Azərbaycançılıq ideologiyasına sadiq qalmalıyıq.

Multikulturalizm həm də dövlət strategiyamızdır. Yeri gəlmişkən, beynəlxalq münasibətlər sahəsində ekspert A.Qut ABŞ-da nəşr olunan "The Hill" qəzetində "Azərbaycan tolerantlıq və multikulturalizm ölkəsidir" məqaləsində göstərir ki, bu ölkə hətta kommunist dövründə belə dini tolerantlığı qoruyub-saxlamağı bacarıb. İtaliyanın məşhur “Capitolino Flash”qəzetində jurnalist P.Onoroti isə "Azərbaycan-Mədəniyyət və Dinlərarası Tolerantlıq Nümunəsi” məqaləsində yazır ki, Azərbaycan dünyanın ən tolerant dövlətidir. Bəşəriyyətin dinc yaşaması üçün bu böyük önəm daşıyır.

Azərbaycan tarixində multikulturalizm sahəsində ən böyük islahatlar ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz o, xalqına müstəqillik, azadlıq, rahatlıq və stabillik bəxş edib, tolerantlıq mədəniyyətinin qorunmasında və bu sahədə böyük islahatların aparılmasında əvəzsiz rol oynayıb. Hakimiyyətə gəldiyi ilk günlərdə ulu öndər Heydər Əliyev bütün dinlərə dövlət tərəfindən bərabər diqqət və qayğı göstərilməsinin əsasını qoyub.

Bu gün də o ənənələr möhtərəm Prezidentimiz tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının 15 may 2014-cü ildə imzaladığı fərmanla Bakı Beynəlxalq Multikulturalizm Mərkəzin yaradılması multikulturalizm dəyərlərinin və təcrübəsinin dünyada təbliği istiqamətində atılan mühüm addımdır.

**Prezident İlham Əliyev:** "Biz Avropa və Asiya arasında yerləşirik. Əlbəttə ki, bu coğrafi yerləşmə Azərbaycanın mədəni müxtəlifliyində öz rolunu oynayıb. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşayıblar. Biz fəxr edirik ki, bu müsbət meyillər müstəqillik illərində daha da güclənib. Bizim tarixi abidələrə nəzər salmaq yetər ki, Azərbaycanın mədəni müxtəlifliyi aydın görünsün. Biz tarixi və mədəni irsimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən olan, 743-cü ildə inşa edilmiş məscid Azərbaycanın qədim Şamaxı şəhərində yerləşir. Dünyanın ən qədim kilsələrindən biri - Qafqaz albanlarının kilsəsi Azərbaycanın digər qədim Şəki şəhəri yaxınlığındadır. Pravoslav və katolik kilsələr, sinaqoqlar, atəşpərəstlər məbədi bizim mədəni irsimizin tərkib hissəsidir və biz bununla fəxr edirik".

Bu gün Azərbaycanda hər birimizin həyat tərzinə çevrilən, günü-gündən sosiallaşan multikulturalizm və tolerantlıq həm də cəhalətin, irqçiliyin süqutu, nəticə etibarilə isə cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə isə sülh deməkdir.

*Ziyadxan Turan*

# ANONS

## Optoqrafiya-fərziyyə, yoxsa elm?

Optoqrafiya nədir? O, elmdir, fərziyyədir, yoxsa əfsanə. Bu suallara cavab tapmaq üçün dövrümüzdə araşdırma aparmaq imkanları çox genişdir.

Düzü, bu barədə Azərbaycan dilində köməyimizə çatan heç bir ədəbiyyata rast gəlmədik. Kiçik bir araşdırmadan sonra daha maraqlı bir məqam diqqətimizi çəkdi. Rusiya istehsalı olan “Palaç”(“Cəllad”) teleserialında qatl törədən şəxsin qurbanını öldürdükdən sonra onun gözlərinə atəş açması və ona “Niyə belə etdin”,- deyən dostuna: “Bu, optoqrafiyadır” deməsi bu terminin əfsanədən uzaq olması anlamına gəlir...

*Ətraflı gələn sayımızda.*

# Cinayətkarın şəxsiyyətində bioloji və sosial amillərin nisbəti

**Cinayət törədənin şəxsiyyəti haqqında tam təsəvvürün yaradılması üçün bioloji və sosial amillərin müqayisəsinin aparılması zəruridir. Bioloji, sosial və psixoloji katalizatorlar insanın şəxsiyyətinin formalaşdırılmasının əsasını təşkil etdiyindən onun araşdırılması mühüm əhəmiyyət daşıyır.**

Müasir kriminoloji tədqiqatlarda bioloji və psixoloji amillərin kriminal davranışa təsiri ilə bağlı məsələlərə maraq artdığından bu sahə daha geniş araşdırılmaqdadır. Lakin cinayət törədənin genetik amillərinin öyrənilməsi ilə bağlı tədqiqatların XIX əsrdə antropoloji məktəbin yaranması ilə birbaşa bağlılığı xüsusi olaraq vurğulanmalıdır. Məhz bu istiqamətdə aparılan ilkin tədqiqatlar kriminologiya elminin intibah dövrü adlandırıla bilər. Antropoloji məktəbin əleyhdarlarının sayının çox olmasına baxmayaraq cinayətkarlığın mənşəyi haqqında fikirlərin inkişafı kriminoloji tədqiqatlara olan marağın artmasına və cinayətlərin kriminoloji araşdırmalar vasitəsilə öyrənilməsinə əsaslanan elmi mülahizələrin yaranmasına təkan verdi. Bu mülahizələrin fonunda kriminologiya elmində cinayətkar davranışın səbəbiyyat kompleksini öyrənən iki böyük antropoloji və sosioloji məktəb daha intensiv inkişaf etməyə başlamışdır. Hər iki məktəbin tərəfdarlarının elmi araşdırmaları və gətirdikləri arqumentlər nə qədər fərqlilik yaratsa da, kriminal davranışın detallaşdırılmış və məzmunlu dərk olunması üçün bir tamın hissəsi kimi müəyyən vəhidlik də yaradırlar. İnsanın genetik xüsusiyyətlərinin və sosial mühit amilinin birlikdə tədqiq edilərək müqayisəsinin aparılmasının şəxsiyyətin strukturunda olan elementlərin dərk olunması və yaranması mexanizmlərinin öyrənilməsində nəzəri və təcrübi əhəmiyyəti böyükdür.

Sosial və psixoloji xüsusiyyətlərin qarşılıqlı təsiri vasitəsilə insanın şəxsiyyəti onun həyatının hər mərhələsində formalaşaraq təkmilləşir. Şəxsiyyətin formalaşması dövründə bioloji amillərin təsiri də kifayət qədər böyükdür. Lakin bu amil kriminologiya elminin daxilində mübahisəli fikirlərin də çoxluğunu yaratmışdır. Bu sahədə bir neçə müxtəlif terminlər işlədilməkdədir.



Daha çox işlədilən bioloji və ya genetik ifadələrinin cinayətkarlığın səbəbiyyat kompleksi ilə bağlılığı dəqiqləşdirilməlidir.

İnsan biologiyası dedikdə, onun bədən quruluşu, daxili orqanlarının funksiyaları, bəzi ehtiyacları, ətraf mühitlə əlaqəsi (nəfəs almaq, qidalanma və s.) başa düşülür. Ümumilikdə biologiya insanı bir canlı orqanizm kimi öyrənir. Genetika isə irsiyyət qanunlarını və orqanizmin dəyişkənliyini öyrənən elmdir. Bu sahə insan biologiyasının bütün sahəsini əhatə etməsə də onun bir hissəsi hesab edilə bilər. Cinayət törədənin şəxsiyyətin genetik xüsusiyyətlərin təsiri dedikdə irsi keyfiyyətlərin tədqiqi nəzərdə tutulmalıdır. Müasir dövrdə genetik tədqiqatlar daha da inkişaf edərək molekulyar səviyyədə də aparılır. Molekulyar səviyyədə genetik tədqiqatların əsas obyekti nuklein turşuları, DNT və RNT molekullarıdır.

Genlər vasitəsilə insanın müəyyən bioloji xüsusiyyətləri irsən ötürülür. Lakin genlərin fəaliyyətinə ətraf mühitin təsiri də mövcuddur. Qeyd olunan səbəbdən iki anlayış fərqləndirilərək öyrənilməlidir. Genotip – irsi faktorların cəmidir, fenotip-genotiplə ətraf mühitin qarşılıqlı əlaqəsindən yaranan ətraf mühitin əlamətlərinin cəmidir. Fenotip orqanizmin inkişafı prosesində genotipin ətraf mühitlə təsiri nəticəsində formalaşır.

N.P.Dubinə, İ.İ.Karpesə, V.N.Kudryavsevə görə genetik obyekt kimi insanın öyrənilməsi daha çox çətinliklər yaradır. İnsan üzərində eksperimentlərin aparılması maraq baxımından nə qədər diqqəti cəlb etsə də, əxlaqi baxımdan müəyyən problemlər ortaya çıxır. Yəni, eksperiment xatirinə hər hansı cütlüyü evlənməyə məcbur etmək qeyri-əxlaqi olduğundan mümkünsüzdür. Bundan başqa, digər canlılardan fərqli olaraq insanlarda bir nəslin digərini dəyişməsi böyük zaman tələb edir. Bu zaman 25 il davam edə bilər. Qeyd olunanlar insanın irsi xüsusiyyətlərinin, həmçinin onların nəsildən-nəslə ötürülməsi qanunauyğunluqlarının tədqiqini çətinləşdirir.

İnsan davranışının dərk olunması bioloji faktorla bərabər sosial amillərin də öyrənilməsini tələb edir. Alimlər sübut edirlər ki, insanın bioloji təkamülünün əsas şərtlərindən biri ətraf sosial mühit və onun təsiridir. Davranış mexanizminə təsir göstərən amillərin içərisində neqativ sosial faktorlar da mövcud ola bilər. Bu zaman insanda genetik mutasiyalar baş verir. Tədqiqatlar göstərir ki, genetik mutasiyalar zamanı sinir sistemində psixika daha çox zədə alır. Hesablamalara görə, yer kürəsində olan insanların təqribən 3%-i əqli çatışmazlıqla doğulur. Bu səbəbdən bioloji amillərin cinayətlərin birbaşa səbəbi qismində çıxış etməsi fikri yanlışdır. Onlar kriminal davranışın səbəbi yox, onun inkişafına təkan verən şərait qismində ola bilərlər.

Cinayət törədənin şəxsiyyətində bioloji və sosial amillərin qarşılıqlı təsirinin tədqiqinin əhəmiyyəti kifayət qədər geniş sahələri əhatə edir. Kriminoloji ədəbiyyatlarda bioloji və sosial amillərin öyrənilməsinin dörd aspekti göstərilir: fəlsəfi, hüquqi, etik və tibbi-bioloji.

Fəlsəfi aspektdə sosial və bioloji amillərin tədqiqi insan davranışında determinizm və indeterminizm probleminin öyrənilməsi ilə bağlıdır. Əsas məqsəd insanın öz davranışında nə qədər müstəqil olduğunu müəyyən etməkdir. Əgər insanın davranışında bioloji amillər əsas rol oynayırsa, onda bu davranış düşüncə və iradədən kənar baş verməlidir. Bu isə bizim davranış və onun səbəbiyyatı haqqında təsəvvürlərimizin əleyhinədir.

Qeyd olunan səbəbdən insan davranışı həm bioloji, həmçinin sosial amillərin kompleksində öyrənilməlidir. Kriminal davranışın səbəbləri daxili və xarici faktorların təsirindən asılıdır.

Yalnız bioloji amil birbaşa cinayətkar davranışı yarada bilməz. O, neqativ sosial mühitin təsiri altında dərinləşərək kriminal davranışı stimullaşdırmalıdır. Əgər insan onun davranışını qabaqcadan müəyyən edən genetik proqramla doğulursa, onun hərəkətlərinin hüquqi və ya mənəvi məsuliyyəti haqqında məsələ hansı yolla edilməlidir? Göründüyü kimi, məsələ nə qədər fəlsəfi olsa da hüquqi, mənəvi və tibbi baxımdan da mürəkkəb məsələlərlə əhatələnmişdir.

*Ardı gələn sayımızda.*

*Vüqar Mansurov,*
*DİN-in Polis Akademiyasının*
*“Daxili işlər orqanlarının inzibati fəaliyyəti” kafedrasının baş müəllimi,*
*polis polkovnik-leytenantı*

# GÖZÜ YOLDADIR XAN ÇİNARLARIN...



Cəbrayıl rayonunun Ermənistan Silahlı Qüvvələri tərəfindən işğalından 27 il ötür. Erməni işğalçıları ilə döyüşlərdə 180 nəfər şəhid olub. Onlardan 14 nəfəri polis əməkdaşı idi. Dinc əhalidən, 60 nəfəri erməni güllələsinə tuş gəlib, 90 nəfərdən çox sakin əsir və itkin düşüb. Cəbrayılın müdafiəsində v şücaət göstərən 6 nəfərə Azərbaycanın Milli Qəhrəmanı adın verilib.

Cəbrayıllılar 27 ildir ki, Vətən həsrətilə yaşayırlar. Hər il avqustun 23-də gözləri qan ağlayır pərən-pərən düşən çinarlar yurdunun sakinlərinin. Qocalarının isə bir arzusu var: Dünyalarını dəyişəndə doğma torpaqda dəfn olunmaq...

Yeri gəlmişkən, Füzuli də həmin gün işğal olunaraq yerlə-yeksan edildi.

2016-cı il aprelin 1-i hər kəsin yaxşı yadındadır. Həmin gün ön xətdə döyüş növbətçiliyi aparan bölmələrimizə düşmən qəfil hücum etdi. Lakin əsgərlərimiz, döyüşçülərimiz rəşadət göstərərək düşmənin müqavimətini qıraraq onları geri oturtdu. Lələtəpə yüksəkliyi və ətraf bölgələr düşməndən tamamilə azad edildi. Həmin gün gözəl bir tarixi an yaşandı. Mərd oğullarımız o gün Lələtəpə yüksəkliyinə üçrəngli bayrağımızı sancaraq düşmənə və onun havadarlarına Ordumuzun gücünü sübut etdilər. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Hər kəs bu qalibiyyətin sevincini bu gün də yaşayır.

Cəbrayıllıların da tezliklə ata-baba yurdlarına qayıdıb Xan çinarların altında yurd həsrətlərinin sona yetəcəyinə və yenidən doğmalarının nəfəsi olan yerlərə qovuşacaqlarına inanırıq...

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*




Tovuz Rayon Polis Şöbəsinə avqustun 17-də saat 03:00 radələrində şəhər ərazisində 5 nəfərin Gədəbəy rayon sakini İ.Qurbanovu döyərək 320 manat pulunu, mobil telefonunu və sənədlərini almaları barədə müraciət daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən rayon sakinləri Ə.Hüseynov, K.Alıyev, M.Əliyev və O.Sadıqov müəyyən edilərək saxlanılmışlar.

*****

*Şamaxı Rayon Polis Şöbəsinə avqustun 18-də Nağaraxana kəndi ərazisində kənd sakini E.Babayevin xuliqanlıq zəminində ov tüfəngindən havaya atəş açaraq həmkəndliləri Ə.Cavadovu və onun həyat yoldaşını hədələməsi barədə məlumat daxil olmuşdur.*

*Dərhal polis əməkdaşları tərəfindən keçirilmiş əməliyyat tədbirləri ilə E.Babayev saxlanılmışdır. Ondan müvafiq sənədləri olan "İJ-27" markalı ov tüfəngi götürülmüşdür.*

*****

Biləsuvar Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində "Mercedes" markalı avtomobil şəhər ərazisində saxlanılmışdır. Sürücü, Şəki rayon sakini R.Yəhyayev, sərnişinləri olan qardaşı Q.Yəhyayev və həmyerlisi G.Həsənova polis əməkdaşları tərəfindən RPŞ-yə gətirilmişlər. Şəxsi axtarış zamanı G.Həsənovadan 1 kiloqram 848 qrama yaxın heroin və 67 qrama yaxın metamfetamin aşkar edilərək götürülmüşdür.

*****

*Neftçala RPŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində üzərində qanunsuz odlu silah gəzdirməkdə şübhəli bilinən Bankə qəsəbə sakini A.Məmmədov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan "LLAMA" markalı tapança və 1 ədəd patron darağı aşkar edilərək götürülmüşdür.*

*****

Cəlilabad RPŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Uzuntəpə kəndi ərazisində Bakı şəhər sakini O.Hacızadə idarə etdiyi "Mercedes" markalı avtomobildə sərnişini, Lənkəran rayon sakini K.Lətifovla birgə saxlanılmışdır. Şəxsi axtarış zamanı O.Hacızadədən nömrəsi silinmiş "Parabellum" markalı tapança və 9 ədəd patron aşkar edilərək götürülmüşdür.

# DÜNYAYA PƏNCƏRƏ

London polisi 11 nəfərin öz velosipedlərinin internetdə satışa çıxarılması haqqında şikayətinə əsasən əməliyyat keçirdikdən sonra binaların birində 118 velosiped aşkarlayıb. Velosipedlərin ən azı 300 min funt sterlinq dəyərində olduğu təxmin edilir.

Velosipedlərin oğurluq olduğunu ehtimal edən asayiş keçikçiləri araşdırmalara başlayıb. Əməliyyat nəticəsində 2 nəfər həbs edilib.

*****

Moskva Region Mərkəzi Tədqiqat Mühəndisliyi İnstitutu Daxili İşlər Nazirliyi və Milli Qvardiyanın əməkdaşları tərəfindən gizli daşınması üçün kompakt "Poloz" adlı tapança hazırlanıb. 9 mm çaplı özüdoldurulan tapança 50 metrə qədər məsafədən vura bilir. Silah -50 ilə +50 dərəcə arasında sınaqdan keçirilib. Atışma üçün 9x19 mm-lik tapança patronları, o cümlədən polad nüvəsi olan güllə istifadə olunur.

Darağın tutumu 15 və ya 18 patrondur. Silahın istifadəliliyi ən azı 10 min atəş qədərdir. "Poloz" standart ordu tapançasından daha kiçik və daha yüngüldür. Müxtəlif tutumlu daraqlardan istifadə edilə bilər. Tərtibatçıların fikrincə, istifadəsi rahat, etibarlı və asandır.

*****

Dağıstanda inəklər üçün cərimə meydançası yaradılıb. Bura sahibləri tərəfindən nəzarətsiz buraxılan heyvanlar salınır.

Bir çox hallarda inəklər çəmənliklərdə yox, dayanacaqlarda peyda olur, qazonları otlayır, avtomobil yollarını bloklayırlar və sürücülərə getməyə imkan vermirlər. Ona görə də heyvanları cərimə meydançasına düşən sahiblər onu geri almaq üçün iki min rubl cərimə ödəməli olurlar. "Kiməsə güzəştə gedirik, endirim edirik, böyüklərə, nənələrə, pensiyaçılara heyvanlarını elə-belə qaytarırıq və bundan sonra onları çölə özbaşına açıb buraxmamağı xahiş edirik", - deyə Buynaksk şəhər Administrasiyasının əməkdaşı bildirib. O deyib ki, tərtib edilən qaydalara görə, əgər eyni adamın inəyi yenidən cərimə meydançasına düşərsə, sahibi 5 min rubl ödəməlidir.

*****

Türkiyənin Muğla vilayətinin Bodrum rayonunda insan alveri ilə məşğul olan 22 nəfərlik qrup ələ keçirilib. Cinayətkarlar Muğla Şəhəri Təhlükəsizlik İdarəsinin Asayiş şöbə müdirliyi ilə Bodrum prokurorluğu tərəfindən 6 ay davam edən tədqiqatların nəticəsində saxlanılıb. Onlardan 14-ü həbs edilib.

Ölkənin İzmir vilayətində ələ keçirilən qrup liderinin illik gəlirinin 5 milyon türk lirəsi olduğu bildirilir. Əməliyyat nəticəsində saxlanılan 29 əcnəbi qadın ölkələrinə göndərilmək məqsədilə Türkiyənin Miqrasiya Xidmətinə təhvil verilib.

*****

Cari ilin birinci yarısında Gürcüstanda 27 min 800 cinayət hadisəsi qeydə alınıb. Bu, 2019-cu ilin eyni dövrü ilə müqayisədə 16,8 faiz azdır. Bu barədə Gürcüstan Daxili İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, qeydə alınan cinayət hadisələrinin yalnız üçdəbirinin üstü açılıb. Digər faktlarla bağlı araşdırmalar davam etdirilir.

Məlumata görə, hər ay Gürcüstanda orta hesabla 5 min – 5,5 min cinayət faktı qeydə alınıb. Ən az hadisə pandemiya dövründə - aprel ayında qeydə alınıb. Həmin dövrdə fövqəladə vəziyyət rejimində ölkə əhalisinin əksəriyyəti evdə olub.

Qeydə alınan cinayətlər sırasında oğurluq faktları üstünlük təşkil edib. Hesabat dövründə ölkədə 8700 oğurluq hadisəsi qeydə alınıb. Bu cinayətlərin də 21,4 faizinin üstü açılıb.

Cinayətkarlıqda ikinci yerdə ailədaxili zorakılıq dayanır. Birinci yarımildə 2600 belə fakt qeydə alınıb və bu hadisələrin 64,25 faizinin üstünün açılması təmin edilib.

Törədilən cinayətlərin 1800-ü narkotiklərlə bağlı olub. Bu qəbildən olan cinayətlərin 74,26 faizinin üstü "isti izlər"lə açılıb.

*Natiq Cavadov,*
*polis mayoru*

# İNCİLƏR



Axına düşənlər başqa yolların mümkünlüyünü heç ağlına da gətirmir. Müdrik adam isə fərqli yolları görür və özü seçim edir.

**Əbu Turxan**

Sözlər yarpaqlara bənzəyir; çoxlu yarpağı olan ağac az bəhrə verir.

**Aleksandr Pop**

Düşmən istəsəniz dostlarınızı keçməyə çalışın. Dost istəsəniz , buraxın, dostlarınız sizi keçsin.

**La Rokfokald**

Kiçik şeylərə çox əhəmiyyət verənlər əllərindən böyük şeylər gəlməyənlərdir.

**Əflatun**

Düzgünlük sonsuzluğun günəşidir. Necə olsa doğular.

**Vendell Filips**

Ağıllı o adamdır ki, sahib olmadığına görə kədərlənmir və əksinə sahib olduğuna görə şaddır.

**Demokrit**

Söz ürəkdən çıxarsa ürəyə qədər gedər,dildən çıxarsa qulağı keçə bilməz.

**Ərəb atalar sözü**

Yaxşı dostu olanın aynaya ehtiyacı yoxdur.

**Mövlana**

Öyrənməsən, öyrədə bilməzsən.

**Qaliley**

Etdiyin yaxşılığı xatırlama, gördüyün yaxşılığı unutma.

**Şilyon**

Başqalarını bilən adam bilikli, özünü bilən adam isə ağıllıdır.

**Lao Tszı**

Çox işdə şagird olmaqdansa, bir işdə usta ol.

**İmam Qəzali**

Əgər bir yerdə kiçik insanların kölgəsi böyüyürsə, demək o yerdə Günəş batır.

**Konfutsi**

Faydasız həyat – vaxtsız ölümə bərabərdir.

**İ.Höte**

## Avqust ayının 12-dən 18-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 190 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 48 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 111, o cümlədən borclu şəxs qismində axtarışda olan 54 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 9 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 13 nəfər ölmüş, 5 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 116 fakt müəyyən edilmişdir.

# MARAQ DÜNYASI



## ALMANİYADA BU HƏRƏKƏTLƏRİ ETMƏK OLMAZ

Düsseldorfda 86 yaşlı təqaüdçüyə dayanacaqda oturub dincəldiyinə görə cərimə yazılıb. Buna səbəb – həmin dayanacaqdan təyinatına aid olmayan məqsədlər üçün istifadə edilməsi olub, çünki bu şəxs orada avtobus gözləməyib. Almaniyanın bəzi regionlarında əgər siz stansiyada və dayanacaqda elə-belə oturmusunuzsa, həqiqətən də cərimə tətbiq edilir. Təqaüdçüyə 35 avro cərimənin ödəmək lazım gəlməyib, çünki o, demensiya və ürək xəstəliyindən əziyyət çəkirmiş. Yalnız müvafiq tibbi arayış təqdim ediləndən sonra təqaüdçünün üzərindən cərimə götürülüb.

Bu qayda praktikada az istifadə olunsa da, Almaniyanın bir çox şəhərlərində ictimai nəqliyyatda alkoqol qəbul etmək həqiqətən də qadağandır. Avtobus, metro və tramvaya pivə və çaxır şüşəsi ilə daxil olmaq mümkündür. Lakin alkoqol şüşəsini nəqliyyatda açıb qəbul etmək qadağandır. Bu qaydalar Berlin, Münxen, Nürnberq, Ştutqart və Duysburqa tətbiq edilir. IC и ICE tipli sürətli qatarlara bu, aid edilmir.

Banan qabığı, alma cecəsi və hətta giləmeyvə tumlarını yerə atmaq olmaz: belə hərəkətlərə görə cərimə 10 avrodan 20 avroyadəkdir.

Şaurma və ya kartof-frinin qoxusu sərnişinlərin xoşuna gəlməyə bilər. Bu səbəbdən avtobus, metro və tramvaylarda yemək-içmək xoş qarşılanmır. Əgər kimsə yeməyi və ya içkisi ilə oturacağı çirkləndirərsə, 40 avro cərimə ödəməli olur.

2017-ci ilin aprelindən Kölndə qəlyan çəkmək qadağan olunub. Amma bu qadağa şəhərin yalnız bir ərazisinə — Reyn sahilində yerləşən Doyts rayonuna aiddir. Qayda pozanların 75 avrodan 150 avroyadək cərimə ödəmək qorxusu var.

Siqareti küçədə çəkmək və sonra kötüyünü yerə atmaq yaxşı hərəkət sayılmır. Bu hərəkətə görə cərimə 20 avrodur.

Saqqız da zibilə aiddir, onu da təyin olunmayan yerə atanların cəzası 10-20 avro arası təşkil edir.

Almaniya parklarında çiçək kərdisindən buket toplamaq və ya gül dərmək cəzasız ötüşməyəcək. Buna görə cərimələr lazımıncadır. Bu, dəcəllik deyil, maddi ziyanın vurulmasıdır.

"Wildpinkler" – Almaniyada ayaqyoluna "çata bilməyən" adamları belə adlandırırlar. Yaxşısı budur, belə zarafat etməyəsiniz. Çünki bu hərəkəti törədən ən pis halda bir ilədək azadlıqdan məhrum edilə bilər. Xuliqanlığa görə minimal cərimə isə 35 avrodur.

*Hazırladı: R.Əliyeva*

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9400
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik